# 31 MART AZƏRBAYCANLILARIN SOYQIRIMI QURBANLARININ XATİRƏSİ BÖYÜK EHTİRAMLA ANILMIŞDIR

## Gəncə

31 mart – Azərbaycanlıların Soyqırımı Günü münasibəti ilə Gəncə şəhərində silsilələ anım mərasimləri keçirilmişdir. Bütün təhsil, səhiyyə ocaqlarında azərbaycanlıların soyqırımı haqqında fotosərgilər və filmlər nümayiş etdirilmiş, bir daha ermənilərin misli görünməyən törətdikləri vəhşilikləri hamının diqqətinə çatdırılmışdır. Gəncə Şəhər İcra Hakimiyyətinin, YAP nümayəndələrinin, hüquq mühafizə orqanlarının, idarə və müəssisələrin rəhbərləri, ziyalılar, müəllim, tələbə-şagirdlər və minlərlə Gəncə sakinləri Şəhidlər Xiyabanını ziyarət etmişlər. 31 mart Azərbaycanlıların Soyqırımı abidə kompleksinə, ermənilər tərəfindən qətlə yetirilmiş şəhidlərin abidəsi önünə tər qərənfillər düzmüş, soyqırım qurbanlarının ruhuna dualar oxunmuşdur.

Mərasimdə Gəncə Şəhər İcra Hakimiyyəti başçısı Elmar Vəliyev geniş məruzə ilə çıxış edərək, erməni ekstremistlərinin törətdiyi faciələrdən, azərbaycanlıların zaman-zaman məruz qaldıqları soyqırımından, erməni şovinistləri, quldurları və mənfur imperiya tərəfindən müxtəlif illərdə soydaşlarımızın öz ata-baba yurdlarından deportasiya edilməsindən ətraflı söhbət açdı. Ermənilərin xalqımıza qarşı törətdikləri vəhşilikləri, faciələri yalnız ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə, ali hakimiyyətə qayıdışından sonra həmin cinayətkar əməllərə, iki əsr ərzində xalqımıza qarşı törədilmiş vəhşiliklərə obyektiv hüquqi-siyasi qiymət verdiyini, ulu öndərin tarixi ədaləti bərpa edərək 1998-ci ilin martın 26-da imzaladığı fərmanla 31 martın Azərbaycanlıların Soyqırımı Günü elan etdiyini vurğuladı. Bildirdi ki məhz bu tarixi sənəddən sonra hər il ölkəmizdə anma mərasimləri keçirilir, bu dəhşətli cinayət qətiyyətlə pislənir. Bu gün ümummilli liderin siyasi kursunu uğurla davam etdirən dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, erməni şovinizmin yırtıcı siyasətinin ifşası istiqamətində geniş, ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir.

Çıxış edənlərdən şəhid ailəsi Vüsalə Veysəlova, Qarabağ əlili Fəxrəddin Sultanov, Qafqaz Müsəlmanları İdarəsinin Qərb Bölgəsi üzrə nümayəndəsi Tahir Abbasov və başqaları faktlara, arxiv mənbələrinə əsaslanaraq, böyük imperialist güclərin, dairələrin himayədarlığı ilə erməni millətçiləri və silahlı birləşmələri tərəfindən nəinki Bakıda, Gəncədə, Qubada, eləcə də ölkəmizin müxtəlif bölgələrində günahsız soydaşlarımızın, qocaların, qadınların və uşaqların milli və dini mənsubiyyətə görə sistemli və kütləvi şəkildə, xüsusi amansızlıq və vəhşi metodlarla məhv edilməsi, həmin qanlı hadisələrin çox geniş coğrafiyaya malik olması barədə geniş söhbət açdılar.

Ümummilli liderimizin layiqli davamçısı möhtərəm Prezidentimiz cənab İlham Əliyevin ölkəmizin milli maraqlarının təmin olunması, vətəndaşlarımızın ümumi məqsəd və mənafe naminə birləşməsi, ən ağrılı problemimiz olan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli istiqamətində çox uğurlu siyasət apardığını birmənalı vurğuladılar.

* * *

## Samux

Samux rayonunda qan yaddaşımızda dərin iz buraxmış 31 Mart – Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar rayon icra hakimiyyətinin, YAP rayon təşkilatının nümayəndələri, hüquq mühafizə orqanlarının, idarə və müəssisələrin rəhbərləri, ziyalılar, əmək kollektivləri və sakinlər Şəhidlər Kompleksinin önünə tər qərənfillər düzdülər, bir dəqiqəlik sükutla yad etdilər. Sonra YAP rayon təşkilatının zalında soyqırımdan bəhs edən film nümayş etdirilmişdir. Samux Rayon İcra Hakimiyyəti başçısı Alı Qocayev tarixi faktlara və bugünümüzün reallıqlarına istinad edərək, erməni şovinistlərinin son iki yüz ildə azərbaycanlılara qarşı apardıqları genosid siyasətinin tarixi kökləri, ictimai-siyasi və hüquqi tərəfləri barədə ətraflı məlumat verdi. Erməni millətçilərinin azərbaycanlılara, türklərə qarşı apardığı soyqırımı siyasətinin əsrlərlə davam etdiyini, bu mənfur siyasət nəticəsində yüz minlərlə insanın həyatına son qoyulduğunu, soyqırımı barədə real faktların uzun müddət təhrif olunduğunu və gizlədildiyini təəssüf hissi ilə qeyd etdi. Bildirdi ki, yalnız ulu öndərimiz Heydər Əliyevin səyi nəticəsində soydaşlarımıza qarşı törədilmiş misli görünməz vəhşiliklərə hüquqi-siyasi qiymət verildi.

Çıxış edən tarixçilər və hüquqşünaslar tarix boyu xarici qüvvələrin havadarlığı ilə erməni qəsbkarlarının vətənimizə və xalqımıza qarşı məkrli addımlar atdığını, qırğın və soyqırımları həyata keçirdiyini tədbir iştirakçılarının diqqətinə çatdırdılar.

* * *

## Yevlax

Yevlax şəhərində 31 mart – Azərbaycanlıların Soyqırımı Günü münasibəti ilə geniş tərkibdə anım mərasimi keçirildi. Mərasim iştirakçıları öncə Şəhidlər Xiyabanını ziyarət etdi. Şəhidlərin abidə kompleksinə və 31 mart Azərbaycanlıların Soyqırımı abidə kompleksinə, eyni zamanda ermənilər tərəfindən qətlə yetirilmiş şəhidlərin məzarı üstünə tər qərənfillər düzmüşdülər. Soyqırım qurbanlarının ruhuna dualar oxundu, bir dəqiqəlik sükutla yad edildikdən sonra, Yevlax Şəhər İcra Hakimiyyəti başçısı Qoca Səmədov tarixi faktlara və bugünümüzün reallıqlarına istinad edərək, son iki yüz ildə azərbaycanlılara qarşı aparılan genosid siyasətinin tarixi kökləri, ictimai-siyasi və hüquqi tərəfləri barədə geniş məlumat verdi. Erməni millətçilərinin azərbaycanlılara, türklərə qarşı apardığı soyqırımı siyasətinin XXI əsrin əvvəllərindən davam etdiyini, bu mənfur siyasət nəticəsində yüz minlərlə azərbaycanlının həyatına son qoyulduğunu, soyqırımı barədə real faktların uzun müddət təhrif olunduğunu və gizlədildiyini təəssüf hissi ilə qeyd etdi.

Bildirdi ki, yalnız ulu öndərimiz Heydər Əliyevin səyi nəticəsində soydaşlarımıza qarşı törədilmiş misli görünməmiş vəhşiliklərə hüquqi-siyasi qiymət verildi. 1998-ci il martın 26-da tarixi fərman imzalayaraq "31 mart – Azərbaycanlıların Soyqırımı Günü" elan etdi. Bu gün bu tarixi hadisələrin Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində dövlət başçısı İlham Əliyev tərəfindən ardıcıl və prinsipial siyasət həyata keçirilir.

Çıxış edən tarixçilər, hüquqşünaslar ermənilərin xalqımıza qarşı törətdikləri vəhşilikdən soyqırımı cinayətlərindən faktları diqqətə çatdırdılar. Sonra şagirdlərin ifasında soyqırıma aid ədəbi-bədii kompozisiya göstərilmişdir.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

* * *

## Zaqatala

31 mart – Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş tədbirdə Zaqatala Rayon İcra Hakimiyyəti başçısı Mübariz Əhmədzadə, hüquq mühafizə orqanlarının rəhbərləri və rayon ictimaiyyətinin nümayəndələri iştirak etmişlər.

İştirakçılar ilk öncə Azərbaycanlıların soyqırımı xatirə kompleksini ziyarət etmiş, tər çiçəklər düzmüş, soyqırım qurbanlarının xatirəsini bir dəqiqəlik sükutla yad etmişlər. Rayon icra hakimiyyətinin başçısı Mübariz Əhmədzadə "31 Mart – Tarixin qanlı salnaməsi" adlı geniş məruzə ilə çıxış etmişdir. O, öz nitqində azərbaycanlılara qarşı aparılan soyqırım siyasətinin xronologiyasını ətraflı təhlil etmiş, etnogenezi və ilkin məskunlaşma areallı dəqiq bilinməyən, hər yerə səpələnən, yalnız bəd əməllər hesabına bir yerə cəmləşən ermənilərin "böyük Ermənistan" yaratmaq iddiasını xüsusi qeyd etmişdir. Natiq ulu öndər Heydər Əliyevin Azərbaycan tarixində ilk dəfə olaraq 26 mart 1998-ci ildə "Azərbaycanlıların Soyqırımı haqqında" fərman imzalamaqla xalqımıza qarşı törədilən bu cinayətə siyasi və hüquqi qiymət vermək imkanı yaratdığını bildirmiş, hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən tarixi ədalətin bərpası üçün aparılan mübarizənin davam etdirildiyini vurğulamışdır.

Rayon Məhkəməsinin hakimi Arif İsmayılov, YAP Zaqatala rayon Gənclər Təşkilatının sədri Ramin Həsənov və Göyəm kənd tam orta məktəbinin direktoru Dürdanə Qurbanova öz çıxışlarında erməni millətçilərinin xalqımıza qarşı apardıqları soyqırımı və təcavüzkarlıq siyasətinin iki yüz ildən artıq tarixi olduğunu qeyd etmiş, ötən əsrin əvvəllərində xalqımıza qarşı yürüdülən bu siyasət nəticəsində azərbaycanlıların öz əzəli torpaqları olan İrəvan, Göyçə və Zəngəzuru itirdiklərini xüsusi vurğulamışlar. Digər natiqlər, Azərbaycan dövlətinin məqsədyönlü fəaliyyəti, siyasi iradəsi insanlarımızın vətənpərvərliyi və birliyi sayəsində qarşımızda duran bütün problemlərin həllinə, o cümlədən ərazi bütövlüyü və suverenliyimizin bərpasına, xalqımıza qarşı əsl soyqırım siyasəti həyata keçirənlərin, başqa xalqlara düşmənçilik və nifrət ideologiyasının daşıyıcılarının ifşa edilməsinə nail olacağımıza əminliklərini bildirmişlər.

**Rasim AMANOV,**
**"Respublika".**

* * *

## Ağdam

31 mart – Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar rayonda faciə qurbanlarının xatirəsinə həsr olunmuş anma mərasimi keçirilib. Rayon ictimaiyyətinin nümayəndələri, hüquq mühafizə orqanlarının rəhbərləri, gənclər əvvəlcə Şəhidlər Xiyabanını ziyarət etmiş və bu müqəddəs guşəyə tər qərənfillər düzmüşlər. Soyqırım qurbanlarının xatirəsinə dualar oxunmuşdur.

Sonra anma mərasimi rayon mədəniyyət evində davam etdirilmişdir. Rayon icra hakimiyyətinin başçısı Raqub Məmmədov öz çıxışında azərbaycanlılara qarşı törədilmiş soyqırımla, misli görünməmiş faciələrlə dolu tariximizin səhifələrinə nəzər salmışdır. Qeyd olunmuşdur ki, son 200 il ərzində ermənilər azərbaycanlılara qarşı deportasiya, etnik təmizləmə və soyqırımı siyasəti həyata keçirirlər.

Mərasimdə qeyd olundu ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi istiqamətində apardığı siyasət ümid verir ki, xalqımız nəyin bahasına olursa-olsun öz ərazi bütövlüyünü bərpa edəcək və onlar qədim yurd yerlərinə qayıdacaqlar. Heydər Əliyev Fondunun dünyada apardığı təbliğat uzun illər boyu üzləşdiyimiz faciələrin və soyqırımın üzərinə həqiqət işığı səpir və tarixi sənədlərlə, sənədli filmlərlə və digər vasitələrlə beynəlxalq ictimaiyyətin diqqətini bu problemə cəlb edir.

Anma mərasimində deportasiya şahidlərinin çıxışı üzləşdiyimiz faciələrin ağırlığı haqqında əsl həqiqətləri ortaya qoydu. Belə bir əminlik ifadə olundu ki, zaman Azərbaycanın xeyrinə işləyir. Müstəqil dövlətimizin nüfuzu gündən-günə artır, artıq dünya anlamağa başlayır ki, ermənilər azərbaycanlılara qarşı insanlığa yaraşmayan vəhşiliyə yol vermişlər. Erməni xəyanətinə, erməni xislətinə və erməni hiyləgərliyinə xalqımız son qoyacaq və möhtərəm Prezidentimizin rəhbərliyi altında doğma yurd yerlərini işğalçılardan azad edəcəklər.

**Salman ALIOĞLU,**
**"Respublika".**

* * *

## Daşkəsən

Daşkəsən Rayon İcra Hakimiyyəti Aparatında Daşkəsən Rayon İcra Hakimiyyəti və YAP Daşkəsən rayon təşkilatının birgə təşkilatçılığı ilə 31 mart – Azərbaycanlıların Soyqırımı Günü münasibətilə keçirilən dəyirmi masa rayon ictimaiyyəti nümayəndələrinin fəallığı şəraitində baş vermişdir.

Anım tədbirini Daşkəsən Rayon İcra Hakimiyyəti başçısı Əhəd Abıyev açmış, qeyd etmişdir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin hücum diplomatiyası, Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın beynəlxalq aləmdə apardığı uğurlu təbliğat işi nəticəsində ermənilərin qəddarlığı, haqsızlığı, Azərbaycan torpaqlarını işğal etmək niyyəti dünyaya bəlli olur.

XIX əsrin əvvəllərində İrəvan Quberniyası əhalisinin 80 faizi müsəlmanlardan ibarət olub. Beləliklə, 1828-1832-ci, 1877-1878-ci, 1905-1907-ci, 1918-1920-ci, 1948-1953-cü və nəhayət, 1988-ci illərdə azərbaycanlılara qarşı planlı şəkildə deportasiya və soyqırım siyasəti tətbiq edilmişdir.

Ulu öndər Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" fərman bütün dünya azərbaycanlılarını düşmənə, terrora, mütəşəkkil erməniçilik siyasətinə qarşı mübarizədə sayıq və prinsipial olmağa, qətiyyət, yekdillik və fəallıq nümayiş etdirməyə səfərbər edən tarixi bir sənəddir.

Məruzə ətrafında Daşkəsən Rayon İcra Hakimiyyəti başçının müavini, sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Cavanşir Qocayev, YAP Daşkəsən rayon təşkilatının sədri Meydanəli Yolçuyev, sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdirinin müavini Aidə Nağıyeva çıxış etmiş, tarix boyu ermənilərin yaltaq, hiyləgər, xəyanətkar olması, eyni zamanda qəddarlıqları və s. barədə tutarlı faktlarla öz fikirlərini dəyirmi masa iştirakçılarına çatdırmışlar.

**Eyvaz HƏMİD,**
**"Respublika".**

* * *

## Tərtər

31 mart – Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş ümumrayon toplantısı Şəhidlərin xatirəsinə ucaldılmış abidənin önündə keçirilmişdir. Əvvəlcə Tərtər Cümə Məscidinin axundu Sadiq Cəfərov soyqırım qurbanlarının ruhuna dua oxumuş, sonra onların xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir. Rayon icra hakimiyyətinin başçısı Müstəqim Məmmədov məruzə ilə çıxış etmişdir. O bildirmişdir ki, son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə bədnam erməni millətçiləri tərəfindən həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə və məşəqqətlərə məruz qalmışdır. Bu siyasət planlaşdırılmış ssenari üzrə tarix boyu mərhələlərlə davam etmişdir.

Erməni quldur dəstələri 1918-ci ilin mart-aprel aylarında Bakıda, Şamaxıda, Qubada, Muğanda, Lənkəranda 50 mindən çox azərbaycanlını qətlə yetirmiş, yüz minlərlə insanı torpaqlarından didərgin salmışlar. Təkcə 1918-ci ilin mart hadisələri zamanı Şamaxı qəzasının 86 kəndi yandırılıb, 7 minədək insan, o cümlədən 1653 nəfər qadın 965 nəfər uşaq güllələnib. Bakı quberniyasında 229, Gəncə quberniyasında 272, Quba qəzasında 162, İrəvan quberniyasında 211, Qarabağın dağlıq hissəsində 157 kəndi, bütün məscidləri, məktəbləri, qədim məmarlıq abidələri ilə birlikdə yandırıb külə döndərmiş, əhalisini qırmış və didərgin salmışlar. Zəngəzurda 115, Vedibasar mahalında 118, Zəngibasar mahalında 48 kənd, Şərurda 4 kənd yandırılmışdır.

1988-ci ildə erməni millətçiləri xarici havadarlarının dəstəyi ilə hərbi əməliyyatlara başlayaraq 1988-ci ildə Azərbaycanın qədim ərazisi İrəvanda və respublikamızın 20 faiz ərazilərindən etnik təmizləməni başa çatdırdılar. 1992-ci ilin fevralında erməni cəlladları tərəfindən Qaradağlı və əsrin faciəsi olan Xocalı soyqırımı törədildi.

Yalnız 1998-ci il martın 26-da ümummilli lideri Heydər Əliyevin imzaladığı fərman erməni millətçilərinin hərəkətlərinə hərtərəfli hüquqi-siyasi qiymət olmuşdur.

Tədbirdə 1949-53-cü illər deportasiyasının canlı şahidi, Böyük Vətən Müharibəsi Veteranları Şurasının sədri İman Almuradov, Heydər Əliyev Mərkəzinin direktoru Səlimə Yusifova, hazırda işğal altında olan Umudlu kənd tam orta məktəbinin direktoru Zabil Zeynalov da çıxış etmişlər.

Sonra tədbir iştirakçıları şəhidlərin abidəsi önünə gül-çiçək dəstələri qoymuşlar.

**Vəli İLYASOV,**
**"Respublika".**

* * *

## Şəki

Xalqımızın qan yaddaşına yazılmış soyqırımı günü ölkəmizin hər yerində olduğu kimi, Şəkidə də silsilə tədbirlərlə qeyd olunmuşdur.

Şəhərin bütün ümumtəhsil məktəblərində, Azərbaycan Müəllimlər İnstitutunun Şəki filialında, Şəki Dövlət Pedaqoji və musiqi kolleclərində, Şəki Tibb məktəbində keçirilən anım mərasimlərində xalqımızın başına gətirilmiş dəhşətli hadisələrdən söhbət açılmış, bu olayların heç zaman xalqımızın yaddaşından silinməyəcəyi vurğulanmışdır.

Şəkinin ən qədim məktəblərindən olan 10 saylı tam orta məktəbdə keçirilən mərasimdə Şəki Şəhər İcra Hakimiyyətinin rəhbər işçiləri, idarə və müəssisə, təşkilatların nümayəndələri iştirak etmişlər.

Mərasimdə Şəki şəhər fizika-riyaziyyat və humanitar təmayüllü liseyin tarix müəllimi, əməkdar müəllim Bəşarət Yusifov geniş məruzə ilə çıxış etmişdir.

Natiq qeyd etmişdir ki, 1918-ci ilin mart-aprel aylarında Bakıda, Şamaxıda, Qubada, Lənkəranda, Göyçayda və eləcə də respublikamızın digər bölgələrində erməni cəlladlarının törətdikləri vəhşilikləri, tarixdə analoqu olmayan əməlləri əsrlər keçsə də unudulası deyildir minlərlə insanın qətlə yetirildiyi həmin hadisələrə uzun zaman hüquqi,siyasi qiymət verilməmişdir.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin mart hadisələrinin 80-ci ildönümündə – 1998-ci il mart ayının 26-da imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" fərman erməni millətçilərinin hərəkətlərinə verilən ilk dolğun və hərtərəfli hüquqi-siyasi qiymət idi.

Məhz həmin vaxtdan sonra ermənilərin xalqımıza qarşı törətdikləri vəhşiliklərin zaman-zaman yad olunması, xalqımızın qan yaddaşından silinməməsi üçün saysız-hesabsız tədbirlərin keçirilməsinə qərar verilmişdir.

Sonra mərasimdə 31 mart soyqırım günü ilə bağlı çoxsaylı çıxışlar dinlənilmiş və məktəblilərin ifasında ədəbi-bədii kompozisiya təqdim olunmuşdur.

**İlham PƏNAHOV,**
**"Respublika".**